

# RƏNGLƏRİN ƏN GÖZƏLİ

Leyla NAZLI

Uzaqdan sevmək deyəndə ağlıma ilk sən gəlirsən, Laçınım. Səni heç vaxt görmədən tanıdım, sevdim. Babamın xatirələrindən, nənəmin hər Laçın adı gələndə səsinin titrəməsindən tanıdım səni. Anamın, atamın uşaqlıq hekayələrindən eşitdim səni, hər xatirədən bir ovuc qoparıb xəyalımda Laçın yaratdım. Heç görmədiyim bir Laçınım oldu mənim, armud agaclarından tutmuş, adını eşitdiyim poçtun yanına qədər hamısının şəklini özüm çəkdim təxəyyülümdə. Amma rəngsiz qaldı hamısı. Nə qədər çalışdımsa, rəng verə bilmədim, ağ-qara qaldın xəyalımda. Sonradan öyrəndim, insan görmədiyi bir şeyi rəngli təsəvvür edə bilməzmiş. Onda qorxmuşdum, mənim də rəngim qaçmışdı. Sənin hər zaman ağla qara arasında qalmağından qorxmuşdum... Qorxumla birgə ümidim vardı həmişə. Günəşini sarıya, göy üzünu maviyə boyayıb səni rəngli görmək ümidim vardı... Canlı görmək...

...Bu gün nə oldu, bilirsən? O qorxu çıxdı getdi ürəyimdən. Bizimsən artıq, bizimsən. Gözlərimlə görəcəm səni, hər daşını, gülünü, çiçəyini rəngiylə görəcəm. Sənin də rəngin qayıdacaq, sənlə bağlı xatirələrimin də. Hər şey daha gözəl olacaq səninlə...

Danışacaq, paylaşacaq o qədər sözüm var ki... Onlar da qalsın görüş günümüzə.

Tez zamanda görüşmək diləyilə. Qayıdışın mübarək, Vətən!